AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 29 (1489), 7 - 13 sentyabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## *Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında*

### *Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının əlilliyi olan idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram:**

1. Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında əldə etdikləri ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min), onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min), onun məşqçisinə 50 000 (əlli min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min), onun məşqçisinə 25 000 (iyirmi beş min) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

## *Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında*

### *Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançılarının aşağıda adları çəkilən məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

İbişov İlqar Əsgər oğlu
İbrahimov Ramin İbrahim oğlu
Kirillov Fyodor Borisoviç.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

## *Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında*

### *Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Astanov Elvin Əmrah oğlu
Heydari Hamed Moharramali oğlu
Salei Raman Sergeyeviç

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Aslanov Orxan Əlövsət oğlu
Hacıyeva Şəhanə İbadət qızı
Hüseynova Xanım Akif qızı
İsrafilov Vəli Rəşadət oğlu
Kərimova Dürsədəf Muxtar qızı
Rəhimli Hüseyn Natiq oğlu
Şirinli Vüqar Tofiq oğlu
Vəliyeva Lamiyə Rövşən qızı
Vəliyeva Sevda Rasim qızı
Zəkiyev İlham Əzizağa oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abaslı Namiq Zülfüqar oğlu
Məmmədov Pərvin Rasim oğlu
Nəcəfzadə Səid Əli oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Culfayev Alaverdi Abasoviç
Məmmədov Rəşad Nizami oğlu
Zayets Vladimir Vladimiroviç

**"Tərəqqi" medalı ilə**

Ağakişiyev Fərid İbili oğlu
Əliyev Elvin Adil oğlu
Əliyev Elvin Elman oğlu
Əliyev Rəşad Rauf oğlu
Əliyev Tofiq Zöhrab oğlu
İbrahimov İbrahim Eldar oğlu
Məmmədov Rasim Məmməd oğlu
Məmmədov İmamverdi Ağaverdi oğlu
Nağıyev Mehdi Əli oğlu
Panyutin Oleq Viktoroviç
Zahidov Azad Zakir oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

## *Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbərliyinin təltif edilməsi haqqında*

### *Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan Milli Paralimpiya Komitəsinin aşağıda adları çəkilən rəhbər şəxsləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Rəhimov İlqar Elxan oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Kamal Cabir oğlu

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Tokio-2020 XVI Yay Paralimpiya Oyunları başa çatıb

*Azərbaycan komandası Tokio Paralimpiadasını 14 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurdu*

Səh. 3-5

## İlqar Rəhimov:

"Biz Tokioda Azərbaycan idmanının, paralimpiyaçılarımızın gücünü göstərdik, tarixi qələbə qazandıq"

Səh. 5

**DÇ-2022** (seçmə mərhələ)

## Azərbaycan - Portuqaliya

*7 sentyabr. Bakı Olimpiya Stadionu.*
*Saat 20:00.*



## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "İkinci dəfə qızıl medalı ilə bizi sevindirən Raman Salehi, gümüş medal qazanmış Lamiyə Vəliyevanı və bürünc medal mükafatçısı Səid Nəcəfzadəni ürəkdən təbrik edirəm!".

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan idmançımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan idmançımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Qızıl medalçımız Vəli İsrafilovu inamlı qələbəsi münasibətilə səmimi qəlbdən təbrik edirəm!"

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Tokio-2020" Yay Paralimpiya Oyunlarında 3-cü qızıl medalını qazanan Raman Salehi bir daha səmimi qəlbdən təbrik edirəm!".

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti qızıl medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalları qazandıran idmançılarımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Paralimpiyaçılarımız bizi sevindirməkdə davam edir. "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medallarımızın sayı 14-ə çatdı. Qızıl medalçılarımız Lamiyə Vəliyeva və Orxan Aslanovu inamlı qələbələri münasibətilə ürəkdən təbrik edirəm!".



## Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti medallar qazandıran idmançılarımızı təbrik edib.

Birinci vitse-prezidentin bununla bağlı instaqram hesabında etdiyi paylaşımda deyilir:

"Bu günədək olan nəticələrə əsasən Azərbaycanın 10 qızıl, 1 gümüş və 4 bürünc medalı var! Bugünkü qaliblərimizi - daha bir qızıl medal qazanmış Raman Salehi, gümüş medal sahibi Lamiyə Vəliyevanı və bürünc mükafatçı Səid Nəcəfzadəni səmimi-qəlbdən təbrik edirəm! Milli yığmamıza yeni qələbələr və nailiyyətlər arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib.

Birinci vitse-prezidentin bununla bağlı instaqram hesabında etdiyi paylaşımda deyilir:

"İdmançımız Vəli İsrafilov "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti, 11-ci qızıl medalı qazandırdı. Azərbaycanın paralimpiya rekordunu yeniləmiş ən gənc çempionunu səmimi-qəlbdən təbrik edir, milli yığmamızın bütün üzvlərinə güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram".

## Birinci vitse-prezident Mehriban Əliyeva Yay Paralimpiya Oyunlarında Azərbaycan milli yığmasına 12-ci qızıl medalı qazandıran idmançımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında Azərbaycan milli yığmasına 12-ci qızıl medalı qazandıran idmançımızı təbrik edib.

Birinci vitse-prezidentin instaqram hesabında bununla bağlı etdiyi paylaşımda deyilir:

"Tokio-2020" Yay Paralimpiya Oyunlarında Azərbaycanın qızıl medallarının sayı 12-yə çatdı! Paralimpiyaçımız Raman Salehi 3-cü medalını qazanması münasibətilə təbrik edirəm! Azərbaycanı Paralimpiadada layiqincə təmsil edən milli yığmamıza səmimi-qəlbdən təşəkkür edir, bütün idmançılarımıza yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Yay Paralimpiya Oyunlarında uğur qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında uğur qazanan idmançılarımızı təbrik edib.

Birinci vitse-prezidentin instaqram hesabında bununla bağlı etdiyi paylaşımda deyilir:

"Azərbaycan "Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirakını başa çatdırdı! Növbəti qızıl medalları Orxan Aslanov və Paralimpiyada rekordunu təzələmiş Lamiyə Vəliyeva qazandılar! Bütün qalibləri səmimi-qəlbdən təbrik edirəm! İdmançılarımıza təşəkkür edirəm! Siz Azərbaycanı layiqincə təmsil etdiniz! Yüksək bacarıq, qətiyyət, məqsədyönlülük nümayiş etdirərək, siz bütün azarkeşlərinizin ümidlərini doğrultdunuz! Bizim 14 qızıl, 1 gümüş və 4 bürünc medalımız var! Buna görə çox sağ olun! Hər birinizə möhkəm cansağlığı, sevinc, səadət, yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!".

# *Paralimpiyaçılarımızın tarixi qələbəsi*

Paralimpiya komandamız tarixinin ən yaxşı nəticəsini göstərərək, medal sıralamasında 14 qızıl, 1 gümüş və 4 bürünc medalla 10-cu sırada qərarlaşıb. Azərbaycan komandası bu nəticə ilə meydan sahibi Yaponiya, Almaniya, İran, Fransa, İspaniya kimi ölkələri qabaqlayıb. Bu, Azərbaycanın həm Paralimpiya, həm də idman tarixində görünməmiş hadisədir.

Bu nəticələrdən sonra Azərbaycanın yeddi Yay Paralimpiya Oyunlarında qazandığı ümumi medalların sayı 57-yə çatıb. Bunlardan 23-ü qızıl, 19-u gümüş və 15-i bürünc medaldır.

On gün davam edən yarışlarda ümumi komanda hesabında 1-ci yeri 207 (96 qızıl, 60 gümüş və 51 bürünc) medal qazanan Çin idmançıları tutublar. Böyük Britaniya 124 medalla (41 qızıl, 38 gümüş, 45 bürünc) ikinci, ABŞ 104 medalla (37 qızıl, 36 gümüş, 31 bürünc) üçüncü olub. Qonşu Rusiya 118 medal qazansa da, yalnız dördüncü ola bilib (36 qızıl, 33 gümüş, 49 bürünc). Qardaş Türkiyə paralimpiyaçıları 42-ci olub (2 qızıl, 4 gümüş, 9 bürünc).

Dörd idmançımız Tokio-2020-də rekordlara imza atıb. Atletika idman növü üzrə idmançımız Həmid Heydəri (F57) nizəatma növü üzrə 51,42 metr nəticə göstərərək, dünya rekordunu yeniləyib. Elvin Astanov ( F53 - nüvəitələmə) növü üzrə 8,77 metr nəticə göstərərək yeni dünya rekordu müəyyənləşdirib. Üzgüçülük yarışında Vəli İsrafilov (S12 - 100 m brass ) 1:04.86 nəticə ilə, atletika idman növü üzrə isə Lamiyə Vəliyeva (T13) 400 metr kateqoriyasında 55,00 saniyəlik göstərici ilə Paralimpiya rekorduna imza atıblar.

TOKİO - 2020

# Tokio-2020 XVI Yay Paralimpiya Oyunları başa çatıb

## *Azərbaycan komandası Tokio Paralimpiadasını 14 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurdu*



Sentyabrın 5-də Yaponiya paytaxtının Milli Olimpiya stadionunda Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarının bağlanış mərasimi keçirilib.

Mərasim Paralimpiya Oyunlarının iştirakçılarının əyləşdiyi meydanda Yaponiyanın tanınmış estrada ulduzlarının təqdim etdiyi kompozisiya ilə başlayıb.





İştirakçılar Yaponiyanın vəliəhd-şahzadəsi Akişinonu, Beynəlxalq Paralimpiya Komitəsinin (BPK) prezidenti Endrü Parsonsu, Baş nazir Yoşihide Suqanı alqışlarla qarşılayıblar.

Yaponiyanın dövlət bayrağı paralimpiyaçılar tərəfindən meydana gətirilib. Özünümüdafiə qüvvələrinin qoşun növlərinin nümayəndələri dövlət himninin müşayiəti ilə dövlət bayrağını qaldırıblar.

Oyunların iştirakçısı olmuş dövlətlərin bayraqları hər bir ölkənin mükafat almış bir idmançısı tərəfindən meydana gətirilib. Paralimpiya bayrağından sonra meydana üçüncü daxil olan Azərbaycanın Dövlət Bayrağını XVI Yay Paralimpiya Oyunlarının rekordçu çempionu Lamiyə Vəliyeva aparıb.

İştirakçı ölkələrin bayraqlarının paradı atəşfəşanlıqla başa çatıb.

Növbəti kompozisiyanın nümayişindən sonra "I am possible" proqramının istifadəçilərinə və könüllülərə mükafatlar təqdim olunub.

Tokionun qubernatoru Koike Yuriko və Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun iştirakı ilə BPK-nın bayrağı endirilib.

Xanım Koike Yuriko Paralimpiya bayrağını BPK-nın prezidenti Endrü Parsonsa, o isə 2024-cü ildə növbəti Paralimpiadaya ev sahibliyi edəcək Paris şəhərinin meri Ann İdalqoya təqdim edib. Fransanın dövlət himni səsləndirilib. Fransa ilə qurulan birbaşa bağlantıda Paris sakinlərinin, idmançıların Paralimpiya estafetini qarşılamağa hazır olduqları əksini tapıb.

Mərasimdə çıxış edən Tokio-2020-nin Təşkilat Komitəsinin sədri xanım Seyko Haşimoto və BPK-nın prezidenti Endrü Parsons Paralimpiadanın yüksək dostluq şəraitində keçdiyini, koronavirus pandemiyasına baxmayaraq, Tokionun yeni tarix yazdığını və yarışların uğurlu təşkil olunduğunu diqqətə çatdırıblar.



BPK prezidenti Endrü Parsons Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarını bağlı elan edib.

Qeyd edək ki, XVI Yay Paralimpiya Oyunlarında 163 ölkədən 4400-dək idmançı iştirak edib. Paralimpidada idmanın 22 növü üzrə 529 dəst medal uğrunda yarışlar keçirilib. Azərbaycan da daxil olmaqla, onlardan yalnız 78 ölkənin idmançıları mükafatçılar sırasına düşə bilib.

*(ardı 4-cü səhifədə)*

### *Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında medal qazanan ölkələr*

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi | Medal sayına görə |
|---|---|---|---|---|---|
| 1. Çin | 96 | 60 | 51 | 207 | 1 |
| 2. B.Britaniya | 41 | 38 | 45 | 124 | 2 |
| 3. ABŞ | 37 | 36 | 31 | 104 | 4 |
| 4. Rusiya PK | 36 | 33 | 49 | 118 | 3 |
| 5. Niderland | 25 | 17 | 17 | 59 | 9 |
| 6. Ukrayna | 24 | 47 | 27 | 98 | 5 |
| 7. Braziliya | 22 | 20 | 30 | 72 | 7 |
| 8. Avstraliya | 21 | 29 | 30 | 80 | 6 |
| 9. İtaliya | 14 | 29 | 26 | 69 | 8 |
| 10. Azərbaycan | 14 | 1 | 4 | 19 | 20 |
| 11. Yaponiya | 13 | 15 | 23 | 51 | 11 |
| 12. Almaniya | 13 | 12 | 18 | 43 | 12 |
| 13. İran | 12 | 11 | 1 | 24 | 15 |
| 14. Fransa | 11 | 15 | 28 | 54 | 10 |
| 15. İspaniya | 9 | 15 | 12 | 36 | 13 |
| 16. Özbəkistan | 8 | 5 | 6 | 19 | 20 |
| 17. Polşa | 7 | 6 | 12 | 25 | 14 |
| 18. Macarıstan | 7 | 5 | 4 | 16 | 24 |
| 19. İsveçrə | 7 | 4 | 3 | 14 | 27 |
| 20. Meksika | 7 | 2 | 13 | 22 | 18 |
| 21. Y. Zelandiya | 6 | 3 | 3 | 12 | 28 |
| 22. İsrail | 6 | 2 | 1 | 9 | 35 |
| 23. Kanada | 5 | 10 | 6 | 21 | 19 |
| 24. Hindistan | 5 | 8 | 6 | 19 | 20 |
| 25. Tailand | 5 | 5 | 8 | 18 | 23 |
| 26. Slovakiya | 5 | 2 | 4 | 11 | 30 |
| 27. Belarus | 5 | 1 | 1 | 7 | 41 |
| 28. Tunis | 4 | 5 | 2 | 11 | 30 |
| 29. Əlcəzair | 4 | 4 | 4 | 12 | 28 |
| 30. Mərakeş | 4 | 4 | 3 | 11 | 30 |
| 31. Belçika | 4 | 3 | 8 | 15 | 25 |
| 32. İrlandiya | 4 | 2 | 1 | 7 | 41 |
| 33. Nigeriya | 4 | 1 | 5 | 10 | 34 |
| 34. CAR | 4 | 1 | 2 | 7 | 41 |
| 35. Kuba | 4 | 1 | 1 | 6 | 47 |
| 36. İordaniya | 4 | 0 | 1 | 5 | 50 |
| 37. Kolumbiya | 3 | 7 | 14 | 24 | 15 |
| 38. Venesuela | 3 | 2 | 2 | 7 | 41 |
| 39. Malayziya | 3 | 2 | 0 | 5 | 50 |
| 40. Danimarka | 3 | 1 | 1 | 5 | 50 |
| 41. C.Koreya | 2 | 10 | 12 | 24 | 15 |

*(ardı 4-cü səhifədə)*



TOKİO - 2020

# Azərbaycan komandası Tokio Paralimpiadasını 14 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurdu

## Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında medal qazanan ölkələr

(əvvəli 3-cü səhifədə)

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi | Medal sayına görə |
|---|---|---|---|---|---|
| 42. Türkiyə | 2 | 4 | 9 | 15 | 25 |
| 43. İndoneziya | 2 | 3 | 4 | 9 | 35 |
| 44. Çexiya | 2 | 3 | 3 | 8 | 39 |
| 45. Çili | 2 | 3 | 1 | 6 | 47 |
| 45. Serbiya | 2 | 3 | 1 | 6 | 47 |
| 47. Norveç | 2 | 0 | 2 | 4 | 57 |
| 48. Sinqapur | 2 | 0 | 0 | 2 | 63 |
| 49. Avstriya | 1 | 5 | 3 | 9 | 35 |
| 50. İsveç | 1 | 5 | 2 | 8 | 39 |
| 51. Yunanıstan | 1 | 3 | 7 | 11 | 30 |
| 52. Finlandiya | 1 | 3 | 1 | 5 | 50 |
| 52. Qazaxıstan | 1 | 3 | 1 | 5 | 50 |
| 54. BƏƏ | 1 | 1 | 1 | 3 | 58 |
| 55. Kosta Rika | 1 | 1 | 0 | 2 | 63 |
| 56. Ekvador | 1 | 0 | 2 | 3 | 58 |
| 57. Kipr | 1 | 0 | 1 | 2 | 63 |
| 57. Şri Lanka | 1 | 0 | 1 | 2 | 63 |
| 59. Efiopiya | 1 | 0 | 0 | 1 | 73 |
| 59. Monqolustan | 1 | 0 | 0 | 1 | 73 |
| 59. Pakistan | 1 | 0 | 0 | 1 | 73 |
| 59. Peru | 1 | 0 | 0 | 1 | 73 |
| 63 Argentina | 0 | 5 | 4 | 9 | 35 |
| 64. Misir | 0 | 5 | 2 | 7 | 41 |
| 65. Xorvatiya | 0 | 3 | 4 | 7 | 41 |
| 66. Latviya | 0 | 3 | 2 | 5 | 50 |
| 67. Gürcustan | 0 | 3 | 0 | 3 | 58 |
| 68. Honq Konq | 0 | 2 | 3 | 5 | 50 |
| 69. Bolqarıstan | 0 | 2 | 0 | 2 | 63 |
| 70. İraq | 0 | 1 | 2 | 3 | 58 |
| 71. Küveyt | 0 | 1 | 1 | 2 | 63 |
| 71. Namibiya | 0 | 1 | 1 | 2 | 63 |
| 71. Rumıniya | 0 | 1 | 1 | 2 | 63 |
| 71. Sloveniya | 0 | 1 | 1 | 2 | 63 |
| 75. Vyetnam | 0 | 1 | 0 | 1 | 73 |
| 76. Litva | 0 | 0 | 3 | 3 | 58 |
| 77. Portuqaliya | 0 | 0 | 2 | 2 | 63 |
| 78. Bosniya və Hers. | 0 | 0 | 1 | 1 | 73 |
| 78. Salvador | 0 | 0 | 1 | 1 | 73 |
| 78. Keniya | 0 | 0 | 1 | 1 | 73 |
| 78. S. Ərəbistanı | 0 | 0 | 1 | 1 | 73 |
| 78. Monteneqro | 0 | 0 | 1 | 1 | 73 |
| 78. Oman | 0 | 0 | 1 | 1 | 73 |
| 78 Qətər | 0 | 0 | 1 | 1 | 73 |
| 78. Çin Taypeyi | 0 | 0 | 1 | 1 | 73 |
| 78. Uqanda | 0 | 0 | 1 | 1 | 73 |






(əvvəli 3-cü səhifədə)

Azərbaycan bu yarışda 34 idmançı ilə təmsil olunub. Paralimpiyaçılarımız 6 idman növü üzrə pouerliftinq, atletika (nüvə itələmə, disk atma, qaçış, uzunluğa tullanma), cüdo, üzgüçülük, güllə atıcılığı və taekvondo yarışlarında mübarizə aparıblar.

Millimizin heyətində paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn




Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medallara sahib olublar.

Raman Saleh Tokio Paralimpiadasında üç qızıl medal qazanıb. O, 100 metr məsafəyə arxası üstə, sərbəst və batterflay üsulu ilə üzmə yarışlarında Paralimpiya çempionu olub. Digər üzgüçümüz Vəli İsrafilov isə 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışında birinci yeri tutub. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri qızıl medala sahib olub. Orxan Aslanov uzunluğa tullanma yarışında qızıl, Səid Nəcəfzadə isə bürünc mükafata layiq görülüb. Elvin Astanov nüvəitələmə yarışında birinci yeri tutub. Para-atlet Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış yarışında ikinci, 400 metr məsafəyə qaçışda isə birinci pillədə qərarlaşıb. Pouerliftinqçimiz Pərvin Məmmədov (49 kiloqram) fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Qeyd edək ki, Tokio-2020 bir sıra özünəməxsus cəhətləri ilə əvvəlki Paralimpiya Oyunlarından seçilib. Belə ki, Yaponiya paytaxtında təşkil edilən Paralimpiada bütün dünyada tüğyan edən koronavirus pandemiyası səbəbindən bir il müddətinə təxirə salınıb. Təşkilatçıların birlikdə qəbul etdikləri qərara əsasən, əcnəbi tamaşaçıların yarışlara azarkeşlik etmək üçün Yaponiyaya gəlişi qadağan edilib. Yarışları izləmək üçün Yaponiyaya gələn rəsmi nümayəndə heyətlərinin tərkibi də kəskin azaldılıb.

Tokio da daxil olmaqla, Yaponiya prefekturalarının təxminən yarısında epidemioloji vəziyyətin ağır olması səbəbindən fövqəladə vəziyyət rejimi davam edir. Yaponiya paytaxtında və ətraf üç prefekturada təşkil edilən yarışlara yerli tamaşaçıların buraxılmasına icazə verilməyib. Yarışlar fövqəladə vəziyyət rejiminin davam etdiyi şəraitdə keçirilsə də, təşkilatçılar onların yüksək səviyyədə təşkilinə nail ola biliblər.

Xatırladaq ki, növbəti Paralimpiya Oyunları üç il sonra - 2024-cü ildə Fransanın paytaxtı Parisdə keçiriləcək.

### Üzgüçülük

Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarının üzgüçülük yarışlarında komandamıza növbəti medalı Raman Saleh qazandırıb. 100 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışında çıxış edən idmançımız məsafəni 52,69 saniyəyə qət edərək ikinci dəfə Tokio-2020-nin qalibi olub.

Raman Saleh Tokio Paralimpiadasında üçüncü qızıl medalını isə 100 metr məsafəyə batterflyay üsulla üzgüçülük yarışında qazanıb. İdmançımız məsafəni 57,81 saniyəyə qət edərək üçüncü dəfə Tokio-2020-nin ən güclüsü adına sahib çıxıb.



Üzgüçülük yarışlarında komandamıza növbəti medalı Vəli İsrafilov qazandırıb. Təmsilçimiz 100 metr məsafəyə brass üsulu ilə üzgüçülük yarışında məsafəni 1 dəqiqə 04,86 saniyəyə qət edərək bütün rəqiblərini qabaqlayıb və Paralimpiya çempionu olub. Komandamızın üzvü həmçinin bu nəticə ilə Paralimpiya rekordunu da müəyyənləşdirib.

Çempion olan gənc üzgüçümüz eyni zamanda ölkəmizin Paralimpiya tarixinə də düşüb. Belə ki, V.İsrafilov bu uğura 18 yaş 325 günlüyündə nail olaraq ölkəmizin ən gənc Paralimpiya çempionu kimi adını Azərbaycanın idman tarixinə yazdırıb.

### Taekvondo

Tokio-2020 Yay Paralimpiya Oyunlarının taekvondo yarışlarının ilk günündə iki idmançımız dayanq üzərinə çıxıb.

Qadınların yarışında Röyalə Fətəliyeva (- 49 kq), kişilərin mübarizəsində isə İmaməddin Xəlilov (- 61 kq) mübarizə aparıb.

Lakin hər iki idmançımızın ilk cəhdi uğursuz alınıb. Röyalə Fətəliyeva ilk görüşdə Xvansuda Fuanqkitçaya (Tailand) 4:17 hesabı ilə məğlub olub. İdmançımız üçüncü yer uğrunda təsəlliverici görüşdə iştirak edib. Xanım taekvondoçumuz ilk təsəlliverici görüşdə qalib gəlib. Onun Hindistandan olan rəqibi dayanq üzərinə çıxmadığından, idmançımıza texniki qələbə verilib. Lakin idmançımız növbəti mərhələdə ukraynalı rəqibinə 20:26 hesabı ilə uduzaraq, Oyunları medalsız başa vurub.

Komandamızın digər üzvü İmaməddin Xəlilov isə Daniil Sidorova (Rusiya) 19:25 hesabı ilə uduzub. İdmançımız ilk görüşdə məğlub olmasına baxmayaraq bürünc medal uğrunda şansını saxlayıb. Taekvondoçumuz bürünc medal təsəlliverici görüşə çıxıb. O, bu mərhələdə Yaponiyadan olan rəqibini 20:15 hesabı ilə məğlub edib.

(ardı 5-ci səhifədə)

TOKİO - 2020

# İlqar Rəhimov:

## “Biz Tokioda Azərbaycan idmanının, paralimpiyaçılarımızın gücünü göstərdik, tarixi qələbə qazandıq”



“Azərbaycan paralimpiyaçıları XVI Tokio Paralimpiya Oyunlarını görünməmiş, möhtəşəm qələbələrlə başa vurdular”.

Bu sözləri Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov deyib. Komitə prezidenti bildirib ki, Paralimpiya Oyunlarında Azərbaycan yığması öz çıxışını uğurla yekunlaşdırıb. Qeyd edib ki, bu, idmançılarımız üçün tarixi bir paralimpiada idi. Biz Tokioda Azərbaycan idmanının, paralimpiyaçılarımızın gücünü göstərdik, tarixi qələbə qazandıq. Bu, Azərbaycanın 25 illik paralimpiya tarixində ən uğurlu Paralimpiya Oyunları oldu.

Əvvəlki Oyunlarda da Azərbaycan idmanının adını şərəflə qoruduqlarını bildirən İ.Rəhimov, paralimpiyaçılarımızın Rio-2016 Oyunlarında uğurla çıxış etmələrini xatırladıb. Həmin vaxt komandamızın 1 qızıl, 8 gümüş və 2 bürünc medal qazandığını qeyd edən komitə prezidenti, gümüş medalların bizim idmançıların məhz finalda uduzduqlarını təsdiq etdiyini bildirib. Qeyd edib ki, Rio-2016-dan sonra bu məsələlər hamısı - idmançılarımızın qızıl medalları əldən vermələrinin səbəbləri, onların psixoloji durumu komitədə ciddi təhlil olunub. Psixoloqların və məşqçi heyətinin iştirakı ilə idmançılarla ciddi iş aparılıb. Məqsəd final mərhələsində qələbənin əldə edilməsinin yollarını tapmaq idi.

Tokioya gəlmək üçün lisenziya əldə edən 36 idmançının çox yüksək səviyyədə hazırlaşdığını bildirən İ.Rəhimov onların qələbəyə hazır olduqlarını bir daha qeyd edib. Həmin idmançılardan ikisinin COVID-19-a yoluxduğuna görə Oyunlardan kənarda qaldığını təəssüf hissi ilə bildirən komitə prezidenti deyib: “Onlar Paralimpiya çempionu Ramil Qasımov (cüdo) və dünya çempionu Aynur Məmmədova (taekvondo) idilər. Yarışlara çox yüksək səviyyədə hazırlaşsalar da, bu idmançılar Oyunlarda iştirak edə bilmədilər. Komandamız Oyunlarda 34 idmançı ilə iştirak etməyə məcbur oldu. Bu idmançılarla biz 14 qızıl, 1 gümüş və 4 bürünc - ümumilikdə 19 medal qazandıq. Bu, idmanımızın gücünü, Azərbaycan rəhbərliyinin sosial siyasətinin, idman siyasətinin nə qədər güclü olduğunu göstərir. Prezident İlham Əliyevin bu sahələrdə həyata keçirdiyi düzgün siyasət, gördüyü işlər, idman sahəsindəki böyük layihələr artıq öz nəticələrini verir. Biz bununla bütün dünyaya sübut etdik ki, balaca ölkə olsaq da, çox güclüyük. Biz müharibədə qalib gələn, torpaqlarımızı qaytarmağa qadir olan ölkəyik. Biz o ölkəyik ki, şəhidlər verərək böyük zəfər qazandıq. Hesab edirəm ki, məhz bu qələbə idmançılarımıza böyük ruh verdi, onlar bu möhtəşəm zəfərdən ruhlandılar. Prezident İlham Əliyevin Ali Baş Komandan olaraq, bu müharibədə qazandığı böyük qələbə bizim idmançılarımızı da qələbələrə ruhlandırdı. Həmin qələbə yürüşünü biz Tokioda davam etdirdik”.

Azərbaycanın bir neçə idmançısının qızıl medal qazanmaqla yanaşı, yeni dünya və paralimpiya rekordu müəyyən etdiyini xatırladan komitə prezidenti, ilk dəfə olaraq bir idmançının üçqat Paralimpiya çempionu olduğunu da vurğulayıb. Azərbaycanın lisenziya qazandığı bütün idman növlərində ölkəmiz layiqincə təmsil olundu. Misal olaraq üzgüçülüyü qeyd edən İ.Rəhimov bildirib ki, 12-ci təsnifat qrupunda cəmi dörd üzgü məsafəsi var və bizim idmançılar bu yarışların hamısında qızıl medal qazandılar.

“Həmçinin cüdo yarışında Azərbaycan yığması 6 qızıl medal qazanaraq birinci yerdə qərarlaşdı. Cüdonun yarandığı, onun ana vətəni sayılan Yaponiyada bizim idmançılar bütün rəqiblər üzərində qələbə çaldılar. Bu barədə bütün Yaponiya mətbuatı yazır, yapon ictimaiyyəti danışır. Bu münasibətlə mən idmançılarımızı və bütün xalqımızı təbrik edirəm. Bir daha bütün idmançılarımızın adından Prezident İlham Əliyevə təşəkkür edirəm. Həm dövlətimizin başçısı, həm də Mehriban xanım Əliyeva hər gün bizim idmançılarımızın çıxışlarını izləyirdilər, onların hər bir uğuruna bizimlə birlikdə sevinirdilər. Özlərinin təbriklərini göndərirdilər. Bu, əlavə olaraq bizim üzərimizə böyük məsuliyyət qoyurdu və idmançılarımızı daha da ruhlandırırdı. Bu qayğıya, diqqətə görə biz cənab Prezidentə, Mehriban xanıma təşəkkür edirik. Şadıq ki, onların bizə göstərdiyi böyük etimadı doğrulda bildik və biz Vətənə böyük qələbə ilə dönürük. Şadıq ki, biz Azərbaycan idman tarixində böyük bir səhifə yazdıq və sübut etdik ki, Azərbaycan idmanı çox güclüdür. Azərbaycan çox güclü dövlətdir. İstənilən səviyyəli yarışlarda bizim idmançılar ön sıralarda gedə bilərlər və gedirlər”, - deyə İ.Rəhimov deyib.

Azərbaycan paralimpiya komandasının Tokioda bir sıra əlavə tədbirlərə qatıldığını qeyd edən komitə prezidenti Oyunlar çərçivəsində bir neçə layihənin gerçəkləşdirildiyini də bildirib. Belə ki, yaranmış imkandan istifadə edərək, bir çox beynəlxalq idman federasiyalarının rəhbərləri ilə işgüzar görüşlər keçirilib. Gələcəkdə həmin idman növlərinin Azərbaycanda inkişafı ilə bağlı müzakirələr aparılıb.

Ən qiymətli addım kimi isə, Azərbaycan mədəni irsinin yayılması, bütün dünyada tanıdılması məqsədilə xüsusi layihəni həyata keçirdiklərini bildirən İ.Rəhimov deyib: “Bizə diaspor təşkilatı tərəfindən Yaponiyanın Hamamatsu şəhərində Dünya Musiqi Alətləri Muzeyinin olması və həmin muzeydə bütün dünya xalqlarının musiqi alətlərinin nümayiş etdirilməsi barədə məlumat verilmişdi. Təəssüflə qeyd edilmişdi ki, orada Azərbaycan milli alətləri yoxdur. Biz bu çatışmazlığı aradan qaldırmaq üçün Tokioya gələrkən özümüzlə tar, kamança və qaval gətirərək həmin muzeyə təqdim etdik. Həmçinin bu alətlər barədə geniş informasiyanı özündə əks etdirən pasportlar hazırlanaraq muzeyə verildi. Həmin məlumatlarda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu alətlərin UNESCO-nun Qeyri-Maddi Mədəni İrsi Siyahısına Azərbaycan milli musiqi alətləri kimi salındığı xüsusi olaraq öz əksini tapıb. Milli alətlərimizi təqdim etmək üçün əməkdaşlarımız Hamamatsu şəhərinə getdilər. Bu münasibətlə təşkil edilən xüsusi təqdimat mərasimində həmin alətlər muzeyə verildi. Çox sevindirici haldır ki, dünya xalqlarının musiqi alətlərinin nümayiş etdirildiyi muzeydə bundan sonra Azərbaycan musiqi alətləri də sərgilənəcək”.

Komitə prezidenti qeyd edib ki, bu, həm də bütün dünyada Azərbaycan mədəniyyətinin carçısı, əvəzolunmaz qayğıkeşi Mehriban xanım Əliyevanın musiqi alətlərimizi tanıtmaq istiqamətində irəli sürdüyü ideyaların davamıdır. Paralimpiya Komitəsi ilə Heydər Əliyev Fondu arasında həyata keçirilən birgə layihələr bundan sonra da uğurla davam edəcək və mədəniyyətimizi, idmanımızı bütün dünyaya tanıdacaq. Təbii ki, bu bir tarix, bir izdir və paralimpiyaçılarımız tərəfindən Yaponiyada gerçəkləşdi.

# *Azərbaycan komandası Tokio Paralimpiadasını 14 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurdu*

*(əvvəli 4-cü səhifədə)*

Təəssüf ki, idmançımız növbəti görüşdə Vyetnam əsilli Fransa idmançısı, dördqat dünya və ikiqat Avropa çempionuna 26:29 hesabı ilə məğlub olaraq, mübarizəni dayandırıb.

Oyunların növbəti günündə isə taekvondo millimizin kapitanı Əbülfəz Abuzərli (- 75 kq) mübarizəyə başlayıb. İdmançımız 1/8 finalda Allin Kinu Qanapinlə (Filippin) qarşılaşmalı olsa da, rəqibi koronavirusa yoluxduğundan, qalib elan edilib.

30 yaşlı idmançımız 1/4 finalda Xuan Dieqo Qarsiya Lopesə (Meksika) 5:38 hesabı ilə uduzub. İdmançımız bürünc medal üçün təsəlliverici yarışda Anton Şvetslə (Ukrayna) qarşılaşıb. O, bu mərhələdə rəqibinə qalib gəlib - 60:36. Bürünc medal üçün növbəti təsəlliverici görüşünə çıxan Ə.Abuzərli Ceonq Hun Cooya (Cənubi Koreya) 32:46 hesabı ilə uduzaraq, mübarizəni dayandırıb.

Beləliklə, ilk dəfə Paralimpiya yarışlarına salınan taekvondoda komandamız medalsız qalıb.

Xatırladaq ki, dünya və Avropa çempionu Aynur Məmmədova koronavirusa yoluxduğundan, son anda yarışda iştirak edə bilməyib.

## Atletika

Tokio-2020 Yay Paralimpiya Oyunlarında komandamıza daha bir medalı Lamiyə Vəliyeva qazandırıb. Xanım idmançımız 100 metr məsafəyə qaçış yarışlarında finala vəsiqə qazanıb. Məsafəni 11,99 saniyəyə qət edən L.Vəliyeva Paralimpiadanın gümüş medalına sahib olub.

Qeyd edək ki, bu məsafə üzrə yarışda daha iki təmsilçimiz Yelena Çebanu və Yulia Yanovskaya da qüvvəsini sınayıb. Yekunda Y.Yanovskaya dördüncü, Y.Çebanu isə yeddinci pillədə qərarlaşıb.




Lamiyə Vəliyeva növbəti uğurunu 400 metr məsafəyə qaçış yarışlarında əldə edib. O, bütün rəqiblərini qabaqlamağı bacarıb. Məsafəni 55 saniyəyə qət edən təmsilçimiz, həmçinin Paralimpiya rekordu müəyyənləşdirib.

Digər idmançımız Yuliya Yanovskaya isə yarışı beşinci pillədə tamamlayıb.

Azərbaycanlı sprinter Elmir Cəbrayılov da (T13 kateqoriyası) Tokioda mükafatçılar sırasına düşə bilməyib. O, Yay Paralimpiya Oyunlarında 400 metr məsafəyə qaçışda qüvvəsini sınayıb. İdmançımız səkkiz nəfərin yarışdığı təsnifat mərhələsində finişə 52,17 saniyəyə çataraq altıncı olub.

Qeyd edək ki, Elmir Cəbrayılov avqustun 29-da 100 metr məsafəyə qaçışda mübarizə aparıb, lakin təsnifat mərhələsində finişə gəlib çata bilməmişdi.

IV İslam Həmrəyliyi Oyunlarının ikiqat qalibi Samir Nəbiyev (F57 kateqoriyası) atletikanın nüvə itələmə yarışında qüvvəsini sınayıb. Atletimiz altı cəhdindən üçündə dəqiq olub. İdmançımız yekunda 15 idmançı arasında 7-ci yeri tutub.

Paralimpiya Oyunlarının nizə atama yarışında komandamızı Orxan Qasımov təmsil edib. İdmançımız atletikanın nizə atma yarışının (F13 kateqoriyası) final mərhələsində mübarizə aparıb. 27 yaşlı atletimiz yeddi idmançının mübarizə apardığı yarışda medal qazana bilməyib. O, altı cəhdində ən yüksək göstərici kimi nizəni 58,96 metr məsafəyə ata bilib. Bu nəticə ilə Orxan yalnız beşinci ola bilib.

Orxan Aslanov Oyunlarda uzunluğa tullanma yarışlarında da bacarığını nümayiş etdirib. O, nizə atma yarışlarından fərqli olaraq bu dəfə mükafatçılar sırasına düşməyi bacarıb. Paralimpiyaçımız 7,36 metrlik nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Güllə atıcılığı

Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarının güllə atıcılığı yarışlarında komandamızın üzvləri Yelena Taranova və Kamran Zeynalov hədəfi nişan almağa çalışıblar. İdmançılarımız 10 metr məsafəyə güllə atıcılığı yarışlarında təsnifat mərhələsini keçə bilməyiblər. Y.Taranova 538 xalla təsnifat mərhələsində 16-cı olub. K.Zeynalov isə təsnifat mərhələsini 543 xalla 23-cü pillədə başa vurub.

Təmsilçilərimizdən Y.Taranova 25 metr məsafəyə güllə atıcılığı yarışında dəqiqliklərini yoxlayıb. Təsnifat mərhələsində 516 xal toplayan Yelena 29-cu olub və həlledici mərhələyə yüksələ bilməyib.

Sentyabrın 4-də güllə atıcılığında (P4 kateqoriyası) 50 metr məsafəyə yarışda kişi və qadınların qarışıq mübarizəsi təşkil olunub. Burada 34 iştirakçı arasında Azərbaycandan Yelena Taranova və Kamran Zeynalov mübarizə aparıb. K.Zeynalov 518 xalla 20-ci, Y.Taranova 503 xalla 29-cu olub. Onlar ilk səkkiz idmançı arasına düşə bilmədiyindən, finala çıxa bilməyiblər.

TOKİO - 2020



# XVI Yay Paralimpiya Oyunlarında yadda qalan anlar
























# Rusiyanın Kazan şəhərində birinci MDB Oyunları keçirilir

## *Komandamız 6 qızıl, 4 gümüş və 12 bürünc medalla 3-cü pillədə yer alır*

Sentyabrın 4-də Rusiyanın Kazan şəhərində birinci MDB Oyunlarının açılış mərasimi keçirilib. Tədbir 9 iştirakçı ölkənin paradı ilə başlayıb. Meydana birinci Azərbaycan nümayəndələri çıxıblar. Milli musiqinin sədaları altında tədbir iştirakçılarını komanda heyətinin bayraqdarı yunan-Roma güləşi üzrə yeniyetmələr arasında dünya çempionu və MDB Oyunlarının qızıl medalçısı Həsrət Cəfərov salamlayıb.

Daha sonra digər ölkələrin komandaları da onların arxasınca meydana daxil olublar.

Tədbirin rəsmi hissəsində Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müraciəti oxunduqdan sonra Tatarıstan Respublikasının prezidenti Rüstəm Minnixanov yarış iştirakçılarını salamlayıb.

MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Leonid Anfimov çıxış edərək Tokio-2020 Yay Olimpiya Oyunlarında MDB ölkələrinin qazandıqları nəticələrdən danışıb. L.Anfimov oyunları açıq elan etdikdən sonra Rusiyanın dövlət himni səsləndirilib. Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, sentyabrın 11-dək davam edəcək Oyunlarda Azərbaycan komandası idmanın 13 növündə təmsil olunur. Komandamız badminton (8 idmançı), basketbol (4), boks (8), cüdo (16), futzal (13), stolüstü tennis (8), stend və güllə atıcılığı (3), karate (20), kəmər güləşi (4), köreş (5), qadın güləşi (5), sambo (7), sərbəst güləş (10), yunan-Roma güləşi (9), muay-tay (tayboks, 6) idman növlərində mübarizə aparırlar.

İdmançılarımız yarışların ilk dörd günü ərzində 22 (6 qızıl, 4 gümüş və 12 bürünc) medala sahib çıxıblar. Komandamız bu nəticə ilə ümumi hesabda 9 iştirakçı ölkə arasında 3-cü pillədə qərarlaşıb. Birinci pillədə 60 medalla (34 qızıl, 14 gümüş, 12 bürünc) Rusiya komandası yer alıb. Aktivində 33 medal (13 qızıl, 12 gümüş, 8 bürünc) olan Özbəkistan komandası isə ikincidir.

### Boks

Birinci MDB Oyunlarında mübarizəyə ilk olaraq boksçularımız başlayıblar. Sentyabrın 2-də start götürən boks yarışları 4 gün davam edib. Oğlanların yarışında ölkəmizi 5, qızların mübarizəsində isə 3 boksçumuz təmsil edib.

İlk sınağında Vadim Veçerskiyə (Belarus) qalib gələn boksçumuz Tağı Nəsibov (48 kq) yarımfinalda özbəkistanlı Javohir Kuysinovla qarşılaşıb. Görüş rəqibin qələbəsi ilə başa çatıb. Beləliklə, boksçumuz birinci MDB Oyunlarını bürünc medalla başa vurub.

Muinxon Mavlonovu (Tacikistan) mübarizədən kənarlaşdıran komandamızın digər üzvü İbrahim Zeynalov (50 kq) isə finala gedən yolda rusiyalı Artyom Nazarovla döyüşüb. Təmsilçimiz qarşılaşmada məğlub olaraq bürünc medala sahib çıxıb.

Qızların yarışında isə Aysu İsmayılova (48 kq), Qızbəs İsgəndər (57 kq) və Emili Rzayeva (63 kq) 3-cü yeri tutub.

Beləliklə, yarışa 8 idmançı ilə yollanan yeniyetmələrdən ibarət boks komandamız Oyunları 5 bürünc medalla başa vurub.

### Güləş

Sentyabrın 3-də "Bars" Arenada yunan-Roma güləşi üzrə yarışlara start verilib. Ölkəmizi güləşin bu növündə böyük məşqçi Nurəddin Rəcəbov və məşqçi Turac Hüseynlinin rəhbərliyi ilə gənclərdən ibarət millimizin 8 üzvü təmsil edib. Onlardan 7-si qrup mərhələsini uğurla adlayıb. Yarımfinalda daha 4 qələbə qeydə alınıb. Yekunda 8 güləşçimizdən 6-sı fəxri kürsüyə qalxıb.

Turnirdə 55 kq çəki dərəcəsində çıxış edən Nihad Quluzadə rusiyalı Qurban Konaliyev və Özbəkistan təmsilçisi Asomiddin Həsənova qalib gələrək yarımfinala yüksəlib. Təmsilçimiz İsxar Kurbayevi (Qazaxıstan) də məğlub edərək finala adlayıb. Qızıl medal uğrunda görüşdə yenidən Qurban Konaliyev ilə qarşılaşan N.Quluzadə rəqibinə qalib gələrək, birinci MDB Oyunlarının qalibi olub.

Komandamıza növbəti qızıl medalı bayraqdarımız Həsrət Cəfərov (67 kq) qazandırıb. İlk görüşdə rusiyalı İlyas Yandarovu üstələyən H.Cəfərov növbəti mərhələdə qazaxıstanlı Madiyar Maulitkanovu da mübarizədən kənarlaşdırıb. Yarımfinalda özbəkistanlı Doniyerxon Nakibova qalib gələn güləşçimiz finala vəsiqə qazanıb. Həlledici görüşdə Qazaxıstan idmançısı Qoşqar Məhəmmədi mübarizədən kənarlaşdıran Həsrət Cəfərov I MDB Oyunlarının qalibi olub.

Ağır çəki dərəcəsində isə komandamıza qızıl medalı Sərxan Məmmədov (130 kq) qazandırıb. Ardıcıl olaraq Belarus, Rusiya və Qazaxıstan idmançıları üzərində qələbə qazanan pəhləvanımız finala yüksəlib. Həlledici qarşılaşmada güləşçimiz belaruslu Nikita Kovalskiyə qalib gələrək, qızıl medala layiq görülüb.

Komandamızın digər üzvlərindən Qurban Qurbanov (72 kq) gümüş, Nihat Məmmədli (60 kq) və Laçın Vəliyev (87 kq) isə bürünc medala sahib çıxıb.

Beləliklə, yunan-Roma güləşçilərimiz birinci MDB Oyunlarında uğurlu çıxış edərək 3 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar.

* * *

Sentyabrın 4-də sərbəst güləşçilərimiz mübarizəyə başlayıblar. Ölkəmizi böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında Əliabbas Rzazadə (57 kq), Tural Hüseynov (61 kq), Sabir Cəfərov (65 kq), Namus Orucov (70 kq), Cəbrayıl Hacıyev (74 kq), Əşrəf Aşırov (79 kq), Abubakr Abakarov (86 kq), Osman Nurməhəmmədov (92 kq), İslam İlyasov (97 kq) və Aydın Əhmədov (125 kq) təmsil edib.

Təmsilçilərimizdən Əşrəf Aşırov, Abubakr Abakarov və Osman Nurməhəmmədov çempion adını qazanıblar. İslam İlyasov və Aydın Əhmədov gümüş medala sahib çıxıblar. Əliabbas Rzazadə və Sabir Cəfərov isə üçüncü yeri tutub. Beləliklə, millimiz yarışı 3 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurub.

* * *

Sentyabrın 4-də həmçinin qadın güləşi üzrə yarışlarda da qaliblərin adlarına aydınlıq gəlib. Ölkəmizi məşqçi Rövşən Umudovun rəhbərliyi altında Şəhanə Nəzərova (50 kq), Tatyana Varansova (53 kq), Yasəmən Məcidli (55 kq), Jalə Əliyeva (62 kq) və Birgül Soltanova (65 kq) təmsil ediblər.

Bütün çəkilərdə mübarizə dairəvi sistem üzrə təşkil olunub. Yekunda güləşçilərimizdən Ş.Nəzərova gümüş, T.Varansova və B.Soltanova isə bürünc medala sahib çıxıblar.











### Kəmər güləşi

Sentyabrın 5-də kəmər güləşçilərimiz mübarizəyə başlayıblar. Bu idman növündə kişilərdən Nahid Vəliyev (57 kq) və Məhərrəm Eyvazov (68 kq), qadınlardan isə Sənubər Nəbiyeva (66 kq) və Aytəkin Paşazadə (76 kq) çıxış edib. Onlardan yalnız S.Nəbiyeva cəmi bir görüşdə qalib gələrək bürünc medala layiq görülüb. Digər pəhləvanlarımız isə bütün qarşılaşmalardan məğlub ayrılıblar.

### Tayboks

Sentyabrın 5-də I MDB Oyunlarında tayboks idman növündə mübarizəyə start verilib. 63.5 kq çəki dərəcəsində yer alan Azərbaycan təmsilçisi Mahir Əsədzadə ilk görüşdə Ermənistandan olan Alen İsraelyanla qarşılaşıb. İlk dəqiqələrdən rəqibinə güclü zərbələr endirən M.Əsədzadəyə qələbə üçün cəmi 2 dəqiqə 36 saniyə lazım olub. Rəqibi nokauta salan azərbaycanlı idmançı vaxtından əvvəl təmiz qələbə qazanıb.

Bu idman növündə mübarizə aparan digər təmsilçimiz Musa Nuruzadə (57 kq) isə ilk döyüşdən məğlub ayrılıb.

### Basketbol 3x3

Basketbolun 3x3 növündə B qrupunda yer alan Azərbaycan millisi iki görüş keçirib. İlk qarşılaşmasında Qırğızıstana 16:10 hesabı ilə qalib gələn yığmamız, növbəti matçında Belarusa uduzub - 12:20. Samit Nuruzadənin baş məşqçi olduğu kollektivdən ən çox xalı Endər Poladxanlı toplayıb. O, Qırğızıstanla görüşdə 9, Belarusla oyunda isə 4 xal yığmağa müvəffəq olub.



## Şəhidlərimizin xatirəsi kikboksinq yarışı ilə yad edildi

Yasamal rayon İcra Hakimiyyəti və Yasamal rayon Gənclər və İdman İdarəsi tərəfindən Vətən müharibəsi şəhidlərinin doğum günləri ərəfəsində təşkil olunan ənənəvi tədbirlər davam edir. Bu dəfə Vətən müharibəsində şəhid olan Elvin Salahov, Ramil Ağayev, Rəşad Mikayılzadənin xatirəsinə həsr olunmuş kikboksinq üzrə turnir təşkil olunub. Yeniyetmə və gənclər arasında keçirilən turnirdə qaliblərin təntənəli mükafatlandırılma mərasimi keçirilib.

Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov turnirin rəsmi açılış mərasimində çıxış edərək, müzəffər ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini yaşatmaq və gənclər arasında təbliğ etmək məqsədi ilə idarə tərəfindən təsdiq edilmiş xüsusi tədbirlər planına müvafiq olaraq keçirilmiş turnirlərin önəmindən danışıb. Tədbirdə Millət Vəkili Səbinə Xasayeva, Yasamal rayon İcra Hakimiyyəti Başçısı Aparatının şöbə müdiri Xaqan Teymurov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Yasamal rayon Təşkilatının sədri Bəhram Şeydayev çıxış etmiş, Vətən müharibəsi şəhidlərinin xatirəsini ehtiramla yad ediblər. Sonda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri çıxış edərək övladlarının keçdiyi şərəfli döyüş yolundan danışmış, turnirin təşkilatçılarına minnətdarlıqlarını bildirmişlər.

Turnirdə Şahan İmanov (40 kq), Cəfər Cəfərli (50 kq), Elcan İbrahimov (60 kq), İlkin Qafarov (70 kq), Rəsul Süleymanov (80 kq) qalib adını qazanıblar. Qeyd edək ki, ümumilikdə yarışda 50-dək idmançı qüvvəsini sınayıb.

## "Neftçi"nin keçmiş prezidenti vəfat edib



Tanınmış idman ustası, "Neftçi" klubunun sabiq prezidenti, bir çox mükafatların qalibi Aydın İbrahimov 83 yaşında dünyasını dəyişib. Mərhum Bakının "Qurd qapısı" qəbristanlığında torpağa tapşırılıb.

Mərasimdə Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Müdafiə Sənayesi Nazirliyinin, Milli Olimpiya Komitəsinin və Azərbaycan Güləş Federasiyasının rəsmi şəxsləri iştirak edib.

Qeyd edək ki, A.İbrahimov güləş üzrə iki dəfə dünya çempionatının qalibi olub. O, 1963-cü ildə Bolqarıstanda, 1966-cı ildə isə Almaniyada qızıl medal qazanıb. A.İbrahimov 1964-cü ildə Yaponiyanın paytaxtı Tokioda keçirilmiş Yay Olimpiya Oyunlarında bürünc medala sahib olub. Nailiyyətlərinə görə keçmiş SSRİ-nin Əməkdar idman ustası, Əməkdar məşqçi, Beynəlxalq dərəcəli hakim adlarını alıb. O, dünya güləş idman növünün inkişafındakı xidmətlərindən dolayı qızıl medalla təltif edilib. A.İbrahimov bir müddət futbol sahəsində də çalışıb, 1988-1997-ci illərdə "Neftçi" klubunun ilk prezidenti olub.

Prezident İlham Əliyev 2019-cu ilin sentyabrında Aydın İbrahimova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

## Kriştianu Ronaldo 10-cu dəfə Ginnesin Rekordlar Kitabına düşdü



Portuqaliya millisinin və İngiltərənin "Mançester Yunayted" klubunun futbolçusu Kriştianu Ronaldo 10-cu dəfə Ginnesin Rekordlar Kitabına düşüb.

Bu barədə 36 yaşlı hücumçu özünün sosial şəbəkə hesabında paylaşım edib.

Təcrübəli forvard yığma komandada ən çox qol vurmuş futbolçu kimi bu uğura nail olub. Bu münasibətlə futbolçuya xüsusi sertifikat təqdim olunub.

Qeyd edək ki, doğma meydanda İrlandiyaya 2:1 hesabı ilə qalib gəldikləri oyunda dubl edən Ronaldo Portuqaliya millisində 111-ci qoluna imza ataraq, İran seçməsinin Azərbaycan əsilli sabiq forvardı Əli Daeinin rekordunu (109 qol) qırıb.



*Üfüqi*

**1.** Növbəti Paralimpiya oyunlarına ev sahibliyi edəcək şəhər. **2.** 1968-ci ildə Paralimpiya oyunlarını keçirməkdən imtina edən Şimali Amerika şəhəri. **5.** Əlil idmançıları bir araya toplayaraq ilk dəfə yarış keçirən neyrocərrah. **8.** Paralimpiya oyunlarının gerbi belə adlanır. **9.** Tokio-2020 Yay Paralimpiya oyunlarında komandamıza üç qızıl medal qazandıran üzgüçü. **10.** Paralimpiya oyunlarının ilk qızıl medalını əldə edən qadın idmançımız ...Sultanova. **12.** Ginnesin rekordlar kitabında ən uzaq məsafəni ayaqla dəqiq nişan alan, Paralimpiya oyunlarının almaniyalı gümüş mükafatçısı ... Ştuçman. **13.** Azərbaycan idmançıları ilk dəfə bu Paralimpiya oyunlarında iştirak ediblər. **15.** Tokio-2020-də komandamızın bayraqdarı.

*Şaquli*

**3.** Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti ...Rəhimov. **4.** Tokio-2020-nin talismanı. **6.** AMPK-nın vitse-prezidenti, Qarabağ qazisi, ikiqat Paralimpiya çempionu. **7.** Paralimpiya oyunlarında ilk dəfə ölkəmizə medal qazandıran atıcı Yelena... **8.** Yay Paralimpiya oyunlarına ev sahibliyi edən Niderland şəhəri. 9. Yay Paralimpiya oyunları ilk dəfə bu şəhərdə təşkil olunub. **11.** Afina Paralimpiya oyunlarında ilk qızıl, eləcədə ən çox medal qazanan atletimiz. **14.** Paralimpiya oyunlarının proqramına salınmış idman növü.



## Əfsanəvi futbolçunun xatirəsinə həsr olunmuş futbol turniri keçirilib

Əfsanəvi futbolçu, "Şöhrət" ordenli Anatoli Banişevskinin 75 illik yubileyi, yarışın 25 illiyi, həmçinin Bakı Kəndlər Futbol Federasiyasının (BKFF) 15 illiyi münasibətilə futbol turniri keçirilib. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, AFFA-nın rəhbərliyi və BKFF-nın təşkilatçılığı ilə keçirilən turnirdə Bakı, Sumqayıt və Abşeronun kənd və qəsəbələrinin komandaları iştirak edib.

Turnirin yarımfinal mərhələsində "Dirçəliş" və "İ.Cavadov" komandaları qarşılaşıblar. Şağan Olimpiya İdman Kompleksində keçirilən oyunda "Dirçəliş" komandası 2:0 hesablı qələbə qazanıb. Bu qələbə sayəsində "Dirçəliş" komandası bürünc medala layiq görülüb.

Turnirin final oyununda isə "Curat" və "Çinar" komandaları üz-üzə gəlib. Oyundan əvvəl hər iki finalçı A.Banişevskinin və T.Bəhramovun məzarını ziyarət edərək, onların məzarı üstünə əklil qoyublar. Həlledici görüşdə 8:3 hesabı ilə qələbə qazanan "Curat" komandası turnirin qalibi adını qazanıb.

Oyundan sonra mükafatlandırma mərasimi keçirilib. Qalib gələn komandalar medallar, diplomlar, toplar və "Neftçi" FK-nın formaları ilə təltif olunublar.

Mükafatlandırma zamanı turnirin veteran futbolçusuna, bombardirinə, həmçinin ikinci yeri tutan komandanın bəzi oyunçularına fəallıqlarına görə mükafatlar təqdim olunub.

## *2021-ci ilin ən çox qazanan 10 tennisçisi*

"Forbes" jurnalı 2021-ci ildə ən çox qazanan 10 tennisçisinin reytinqini dərc edib. Reytinqdə oyunçuların son 12 ayda qazandıqları gəlirləri nəzərə alınıb.

"Böyük dəbilqə"nin 20 qat qalibi isveçrəli Roje Federer ardıcıl 16-cı dəfə turnirin ən çox gəlir əldə edən oyunçusu seçilib. Belə ki, reytinqdə ilk pilləni tutan R.Federer son 12 ayda 90,6 milyon dollar qazanıb. İkinci yerdə 60,1 milyon dollar əldə edən Naomi Osaka qərarlaşıb. Üçüncü pilləni isə 41,8 milyon dollara sahib olan Serena Uilyams tutub.


**olimpnews.az - sizin saytınız**






Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19